# Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişafında tərbiyəçinin rolu

**Yeganə Xanoğlan qızı Məmmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
**E-mail:** yeganememmedova.doc@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos.Z.İ. Vəliyeva,
p.ü.f.d., dos.Ş.A. Baxışova

**Açar sözlər:** uşaqlar, nitq, tərbiyəçi, məktəbəqədər, inkişaf, təlim, məşğələ, yaş, qrup
**Ключевые слова:** дети, речь, воспитатель, дошкольный, развитие, обучение, занятие, возраст, группа
**Key words:** children, speech, teacher, preschool, development, learning, occupation, age, group

Müstəqillik yolunda inamla addımlayan Azərbaycanda böyüyən nəslin tərbiyəsi daim diqqət mərkəzində saxlanılır. Nəzərə alınır ki, bu gün məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə alan uşaqlar ölkənin dövlət quruculuğunda, onun idarə olunmasında, ideya-siyasi bazasının möhkəmləndirilməsində yaxında iştirak edəcəklər.

Bu gün məktəbəqədər yaşlı uşaqların ana dilinə yiyələnməsi təlim-tərbiyə işinin mühüm vəzifələrindən biridir. Uşağın nitq və düşüncəsinin inkişaf etdirilməsi, ətraf aləmi dərk etməsi, şəxsiyyətinin hərtərəfli formalaşması ilə sıx sürətdə bağlıdır. Böyüməkdə olan gənc nəslə məişətdə, əməkdə, ictimai fəaliyyətdə ana dilinin zənginliklərindən istifadə etməyi öyrətmək təlimin bütün mərhələlərində mühüm bir vəzifədir. Ümummilli liderimiz Heydər Əliyev düzgün demişdir: «Hər bir xalqın milliliyini, mənəvi dəyərini yaşadan, inkişaf etdirən onun dilidir. Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək, şübhəsiz ki, xalq qarşısında böyük bir qəbahətdir» (6).

İnsan hər şeyi öyrənməkdə və tərbiyə almaqda, başlıca olaraq, sözdən istifadə etdiyi üçün dil özünü təlim və tərbiyə üzrə işin mühüm vasitəsi kimi göstərir. Uşağın təlim-tərbiyəsinin mahiyyəti, onun təfəkkürünün inkişafı, şəxsiyyətinin formalaşması, ana dilinə necə yiyələnməsindən asılıdır. Müşahidə və təcrübələr göstərir ki, bağçada təlim-tərbiyə işlərinin müvəffəqiyyəti uşağa ana dilini öyrətməyin müvəffəqiyyətindən asılıdır.

Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişaf etdirilməsi üzrə işlər onlara, ilk növbədə məktəbdə müvəffəqiyyətlə oxumalarını təmin etmək imkanı verir. Ana dili məşğələlərində uşaqlar fikir mübadiləsi keçirir, öz fikirlərini düzgün, aydın, səlis ifadə etmək üçün müvafiq sözlər axtarır, tapdıqları sözləri nitqlərində işlətməyə çalışırlar. Bu məqsədlə məşğələlərdə onların nitq inkişafının müxtəlif cəhətlərini-söz yaradıcılığını, lüğət ehtiyatının zənginləşdirilməsini, nitqin qrammatik cəhətdən formalaşmasını və rabitəli nitqin inkişaf etdirilməsini nəzərdə tutmaq lazımdır (3, s. 19).

Unutmaq olmaz ki, nitq bütövlükdə insan şəxsiyyətini əks etdirir. Ona görə də uşağın nitqinin inkişafı və tərbiyəsinin əsasında bütövlükdə onun şəxsiyyətinin inkişafı və tərbiyəsi durur. Uşaq bağçasının qarşısında uşaqlara ətrafdakı adamlarla ünsiyyətdə olarkən, ana dilindən sərbəst istifadə etməyə və şifahi şəkildə öz fikirlərini düzgün və aydın söyləməyi öyrətmək, onlarda bədii sözə maraq və məhəbbət hissi tərbiyə etmək əsas vəzifələrdəndir. Bu vəzifələr uşağın uşaq bağçasında olduğu bütün müddətdə, hər yaş qrupu üçün proqramın tələbinə mü-

vafiq şəkildə tərbiyəçi tərəfindən həyata keçirilir.

Uşaqların nitqinin öyrənilməsi prosesində aşkar edilmişdir ki, qabaqcıl bağçalarda tərbiyəçilər uşaqların nitqinin inkişafı üzrə işi proqramın tələbləri səviyyəsində qurur və gözəl nəticələr əldə edirlər. Onların tərbiyə etdikləri uşaqlar nitqi dinləməyi, nitq səslərini eşitməyi, düzgün tələffüz etməyi, yeni sözlərin mənasını öyrənir, onları cümlə içərisində işlədir, gördükləri, eşitdikləri haqqında kiçik (üç-dörd cümlədən ibarət) hekayə qurub nəql edə bilirlər. Həmin tərbiyəçilərin nailiyyətləri onunla izah edilir ki, onlar nitq inkişafı üzrə işdə yalnız ana dili məşğələləri ilə məhdudlaşmır, eyni zamanda oyun, gəzinti, ekskursiya və başqa fəaliyyət növlərindən də bu məqsədlə istifadə etməyi bacarırlar.

Azərbaycan dili məşğələlərində nitq inkişafı uşaqların idrak fəaliyyətinin inkişaf etdirilməsinə yönəldilir. Onlar bu prosesdə müşahidə aparmaq, mühakimə yürütmək, təhlil etmək, tutuşdurmaq, ümumiləşdirmək, əqli nəticəyə gəlmək vərdişlərinə yiyələnirlər. Bütün bunlar uşaqların nitqini, məntiqini, təfəkkürünü, idrak fəaliyyətinin inkişafını təmin edir. Nitq inkişafı üzrə işi düzgün təşkil etmək üçün nitq inkişafına bələd olmaq lazımdır. Bu nitq inkişafı sahəsində gələcək işləri düzgün planlaşdırmağa, uşaqların ümumi inkişafını düşünülmüş sistemlə aparmağa imkan verir.

Məktəbəqədər dövrdə didaktikanın prinsiplərinə əsaslanmadan ana dilinin elmi əsaslar üzrə tədrisi mümkün deyil. Didaktik prinsiplərə əyanilik, şüurluluq və fəallılıq, həyatla əlaqələndirilməsi, elmilik, münasib şəraitin yaradılması, sistematiklik və ardıcıllıq, təhsilverici, tərbiyəedici və inkişafetdirici prinsiplərini uşaqların yaş və bilik səviyyəsinə uyğunlaşdırmaqla həyata keçirilməsinə tərbiyəçilər nail olmalıdır.

Nitq inkişafı üzrə işin təşkilində əyanilik müstəsna əhəmiyyətə malikdir. Azərbaycan dili ədəbi tələffüz vərdişlərinin mənimsənilməsi prosesində əyanilik ön plana çəkilməlidir. Əyanilik prinsipi təlimi müccərrəd sözlər üzərində deyil, uşaq tərəfindən bilavasitə qavranılan konkret əşyalar üzərində qurmağa imkan verir. Əyanilik biliyi asan, möhkəm və tez mənimsənilməsinə kömək edir. Əyanilik prosesində uşaqların nitqi ilə yanaşı təfəkkürü də inkişaf edir, uşaqları fəallaşdırır, məşğələnin fəal keçməsinə səbəb olur. Bilik o zaman möhkəm olur ki, o şüurlu şəkildə mənimsənilsin və başa düşülsün. Şüurluluq və fəallılıq olan yerdə fəaliyyət məhsuldar və hərtərəfli olur. Öyrənilənin mənasını bilmədən əzbərləmək uşağı qeyri-fəallığa, əzbərçiliyə doğru aparır, onların təfəkkür fəaliyyətini kütləşdirir. Biliyin şüurlu mənimsənilməsi əsasən uşaqların biliyini sübutlarla izah etməsi əşya və hadisələr arasındakı əlaqəni dərk etməsini göstərir (4, s. 124).

Nitq inkişafı üzrə məşğələlərdə tədrisin həyatla, uşağın şəxsi təcrübəsi ilə əlaqələndirilməsi mənimsəməni yüksəldir. Alınan biliklər, aşılanan bacarıq və vərdişlər uşaqların nitqinin inkişafına güclü təsir göstərir, həyatla əlaqələndirməklə məktəbəqədər yaşlı uşaqlarda öyrənmə bacarığına müsbət təsir göstərməklə yanaşı, onları məktəb təliminə hazırlayır.

Məktəbəqədər dövrdə tərbiyəçilər hər bir uşağın özünəməxsus yaş və bilik səviyyəsinə uyğunluğa görə fərdi xüsusiyyətlərini nəzərə almalıdır. Bu prinsip tərbiyəçidən uşaqların tədris imkanlarını ətraflı nəzərə almağı tələb edir. Bu zaman iki əsas cəhəti diqqətdə saxlamaq lazımdır. Onlardan birincisi, uşaqların bilik və bacarıqlarının necəliyi, ikincisi onların psixoloji inkişaflarının dərəcəsinə diqqət yetirməkdir. Onlardan biri görüb eşitdiklərini tez qavrayır, tez də unudur, digəri isə gec qavrayır, lakin öyrəndiyini uzun müddət yadda saxlayır. Birincidə görmə, ikincidə isə eşitmə bacarığı güclüdür. Tərbiyəçi uşaqlarda bu xüsusiyyəti nəzərə almadıqda məşğələni lazımi səviyyədə qura bilməz. O, hər bir uşağın qüvvətli və zəif cəhətlərini yaxından öyrənməli, qüvvətli cəhətlərini inkişaf etdirməli, nöqsanlarını aradan qaldırmalıdır.

Sistematiklik və ardıcıllıq prinsipinə görə uşaqlara bilik elə məntiqi ardıcıllıqla və sistemli öyrədilməlidir ki, əvvəlki bilik sonrakı üçün zəncirvari əlaqə rolunu oynasın. Eyni zamanda tərbiyəçinin şərhində sistematiklik prinsipinə əməl olunmalıdır. Tərbiyəçi bilik, bacarıq və vərdişləri uşaqlara hansı ardıcıllıqla verəcəyini əvvəlcədən planlaşdırmalıdır. Uşaqların yaş və anlaq səviyyəsinə uyğun olaraq son nailiyyətlərinin maraqlı faktlar əsasında şərh edilməsində elmi prinsip mühüm rol oynayır. Təbiətdə, canlı aləmdə, heyvanların və bitkilərin həyatı haqqında elmi məlumatlar nağılvari formada uşaqlara çatdırıldıqda onlar bunu uzun müddət yadda saxlayırlar. Bu prinsipə əməl edilməsi uşaqları müstəqil müşahidə aparmaq, biliyini artırmaq yollarını müəyyən edəcək səriştə ilə silahlandırır.

Müasir uşaq bağçasını texniki vasitələrsiz təsvir etmək qeyri-mümkündür. Bu gün müasir uşaq bağçalarında dərs vəsaitlərinin, texniki vəsaitlərin, tədris avadanlıqlarının lazımı səviyyədə olması, uşaqların mövzuya qarşı idrak marağını yüksəldir. Bu vasitələr bəzən təlim metodu və priyomu kimi də çıxış edir. Lakin təlim metodları sistemində onların yerini düzgün müəyyənləşdirmək və yalnız ən zəruri hallarda istifadə etmək lazımdır. Bu vasitələrdən (maqnitofon, qrammfon valları, tədris filmləri) istifadə etməyə başlamazdan əvvəl giriş müsahibəsindən və yekunlaşdırarkən tərbiyəçinin canlı nitqinə geniş yer verilməlidir. Çünki tərbiyəçinin canlı sözü biliklərin mənimsənilməsi üçün ən yaxşı vasitədir. Bu zaman müəllimin mənəvi dünyagörüşünün, pedaqoji mədəniyyətinin də böyük rolu vardır. Yüksək mənəvi keyfiyyətlərə, biliklərə malik olan tərbiyəçi uşaqlarla münasibəti düzgün istiqamətdə qura bilər.

Uşaqların nitqi üzərində işləyərkən tərbiyəçilər aşağıdakı tələblərə əməl etməlidirlər:

— Tərbiyəçinin nitqi uşaqlara nümunə olmalıdır.

— Nitq inkişafı üzrə iş prosesin digər sahələri ilə vəhdətdə, kompleks şəkildə təhlil edilməlidir.

— Nitq inkişafı üzrə iş bütün məşğələlərdə, habelə kənar tədbirlərdə aparılmalıdır.

— Nitq inkişafı üzrə iş prosesində mümkün qədər çox, rəngarəng vasitə və priyomlardan istifadə edilməlidir.

— Nitq inkişafı üzrə iş aparılarkən uşaqların ümumi inkişafını, fərdi xüsusiyyətlərini nəzərə almaq lazımdır.

— Nitq inkişafı üzrə işlər uşaqların ümumi inkişafına xidmət etməlidir.

— Nitq inkişafı üzrə iş aparılarkən uşaq bağçalarının yerləşdiyi yer, ətraf mühit, uşaqların marağı və meyli nəzərə alınmalıdır.

— Nitq inkişafı üzrə iş uşaqların oyun və əyləncələri, ailə həyatı, ümumiyyətlə fəaliyyəti ilə əlaqələndirilməlidir.

Tərbiyəçi I sinifdə uşaqların nitqinə verilən pedaqoji-psixoloji tələbləri diqqətlə öyrənməli, məktəb təliminə hazırlıq dövründə diaqnostik nəticələrdən istifadə etməlidir.

Ana dili təlimi qarşısında duran vəzifələrin müvəffəqiyyətlə həll edilməsi üçün birinci növbədə təlim inkişafetdirci olmalıdır. İnkişafetdirmə uşağın ümumi intellektual səviyyəsinin formalaşması ilə bağlıdır, yəni təlim prosesi uşağın nitqinə və fikri izah etmək qabiliyyətinə, qavrama imkanına, təfəkkür fəaliyyətinə kömək göstərir. Belə ki, təlim yalnız elmi biliklərlə silahlandırmır, həm də onların mənəvi dünyasına, əqidəsinə, əməksevərliyinə, estetik baxışlarına və fiziki kamilliyinə güclü təsir göstərir. Tərbiyəçi məşğələlərin məzmununu müəyyən edərkən onun tərbiyəvi mahiyyətini də aydınlaşdırmalıdır. Məktəbəqədər yaş dövründə nitq inkişafı üzrə işi səmərəli təşkil etmək üçün ilk növbədə əlverişli şəraitin yaradılmasının böyük əhəmiyyəti vardır. Unutmaq olmaz ki, bu tələblər bir-birilə üzvü sürətdə əlaqədardır. Tərbiyəçi məşğələ prosesində tələblər arasındakı qarşılıqlı əlaqəni, didaktik vəhdəti unutmamalıdır. Bu tələblərin birinə laqeyd münasibət bəslənilməsi, o biri tələblərin də gücünü zəiflədir və

təlimin müvəffəqiyyətsizliyinə gətirib çıxarır. Tərbiyəçi bu tələbləri bilmədən müvafiq vasitə, metod, priyomları seçməkdə çətinlik çəkər.

**Məqalənin aktuallığı.** Bağça yaşlı uşaqların tərbiyə işinin təkmilləşdirilməsi, bu gün xüsusi aktuallıq kəsb edən vəzifələrdən biridir. Bu mənada məktəbəqədər dövr gələcək şəxsiyyətə bir çox qiymətli keyfiyyətlərin aşılanmasından ötrü zəruri və çox mühüm mərhələyə çevrilir. Bütün bu prosesləri nəzərə alaraq məktəbəqədər yaş dövründə uşaqların nitqinin inkişaf etdirilməsi bu və ya digər şəkildə tədqiq edilsə də, bu sahə üzrə tərbiyəçinin rolu öyrənilməmiş, ümumiyyətlə açıq qalmışdır. Apardığımız tədqiqat bu problemin öyrənilməsinə və həlli yollarının araşdırılmasına həsr edilmişdir.

**Məqalənin elmi yeniliyi.** Bu məqalədə ilk dəfə olaraq məktəbəqədər yaşlı uşaqların nitqinin inkişaf etdirilməsi araşdırılmış, məktəbəqədər dövrdə uşaqların nitq inkişafında tərbiyəçinin rolu müəyyənləşdirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə irəli sürülən təkliflər və nəticələr məktəbəqədər yaş dövründə uşaqların nitq inkişafı üzrə işin təşkilini müvəffəqiyyətlə həyata keçirilməsini təşkil etmək, nitqin inkişaf etdirilməsi zamanı tərbiyəçinin rolunu nəzərə alınmasına köməklik göstərməkdir. Bu məlumatlar vasitəsilə istər tərbiyəçilər, istərsə də valideynlər nitq inkişafı üzrə işin təşkilini müvəffəqiyyətlə həyata keçirilməsini təşkil edə bilər.

## Ədəbiyyat

1. Abdullayev N.Ə., Məmmədov Z.T. Müəllimin nitq mədəniyyəti. Bakı: ADPU, 2003, 167 s.
2. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu) (3-6 yaş). Bakı: 2012, 91 s.
3. İlyasov M.İ. Müəllimin pedaqoji ustalığı. Bakı: Elm və təhsil, 2013.
4. Kərimov Y.Ş. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası. Bakı: 1997, 218 s.
5. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003, 539 s.
6. Uşaq bağçasında nitq inkişafı üzrə aparılan işin forma və yolları: / Y.Aslanovun redaktəsi ilə. Bakı: 1990, 38 s.
7. Heydər Əliyev milli təhsil sisteminin qurucusudur. heydarbabamiz.ru

**Е.Х. Мамедова**

## Роль воспитателя в развитии речи у дошкольников

## Резюме

Сегодня обучение дошкольников на родном языке является одной из важнейших задач воспитания детей. Развитие речи и мышления ребенка, его понимание мира и его всеобъемлющая личность тесно связаны. Развитие речи в раннем детстве даст им возможность читать в первую очередь в школе. В дошкольных учреждениях воспитатели должны учитывать индивидуальные особенности каждого ребенка в соответствии с его возрастом и уровнем знаний.

**Y.Kh. Mammadova**

## The role of the teacher in the development of speech in preschool children


### Summary

Today, teaching preschool children in their native language is one of the most important tasks of raising children. The development of speech and thinking of the child, his understanding of the world and his comprehensive personality are closely related. The development of speech in early childhood will enable them to read primarily in school. In preschool institutions, educators should take into account the individual characteristics of each child in accordance with his age and level of knowledge.


**Redaksiyaya daxil olub:** 11.03.2020